# QEYRİ NEFT-QAZ SEKTORU

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

## ƏSAS İNKİŞAF TRENDLƏRİ ÜZRƏ XÜLASƏ

- ✓ 2021-ci ilin müvafiq dövrünə nisbətən turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində 58,2%, nəqliyyat və anbar təsərrüfatı sahəsində 23,2%, informasiya və rabitə sahəsində 14,8%, qeyri-neft sənayesində 5,7%, tikinti sahəsində 13,4%, ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində 3,2%, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 3,4% artım nəticəsində qeyri neft-qaz sektorunda ÜDM 9,1% artaraq 69,8 milyard manata çatmışdır.
- ✓ Qeyri neft-qaz sektorunda yaradılan ÜDM-in 9,1%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 8,7%-i qeyri-neft sənayesi, 9,3%-i tikinti, 15,8%-i ticarət və nəqliyyat vasitələrinin təmiri, 11,5%-i nəqliyyat və anbar təsərrüfatı, 3%-i turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,7%-i informasiya və rabitə sahələrinin, 28,1%-i digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər isə ÜDM-in 11,8%-ni təşkil etmişdir.

## ƏSAS İNKİŞAF İSTİQAMƏTLƏRİ VƏ PERSPEKTİVLƏR

- ✓ Qeyri neft-qaz sektorunun gələcək inkişaf dövründə qeyri-neft sənayesinin şaxələndirilməsi və daha da inkişaf etdirilməsi, o cümlədən rəqabətqabiliyyətli qeyri-neft məhsullarının istehsalı və ixracın artırılması, aqrar sektorun inkişafı və ərzaq təhlükəsizliyinin gücləndirilməsi, rəqəmsal ticarətin inkişafı və xidmət fəaliyyət növlərinin genişləndirilməsi, turizm sahəsinin bərpasının sürətləndirilməsi əsas prioritet istiqamətlər kimi müəyyən olunmuşdur.
- ✓ Bundan əlavə, ölkədə ortamüddətli dövrdə qeyri-neft iqtisadiyyatında işğaldan azad olunmuş ərazilərin bərpası və reinteqrasiyası çağırışları qlobal investisiya bazarından iri həcmli xarici investisiyaların ölkənin prioritet inkişaf sahələrinə və ərazilərinə yönləndirilməsi üçün geniş fürsətlər açmışdır.

# KƏND, MEŞƏ VƏ BALIQÇILIQ TƏSƏRRÜFATLARI

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ




- ✓ **2022-ci ilin yanvar-dekabr aylarında kənd təsərrüfatında 10984,2 milyon manatlıq məhsul istehsal olunmuşdur. Ötən ilin müvafiq dövrünə nisbətən heyvandarlıq istehsalı 3,4%, bitkiçilik istehsalı isə 3,3% artmışdır.**
- ✓ **Heyvandarlıq sektorunda artım əsasən yumurta (9,8%) və diri çəkidə ət istehsalının (3,0%), bitkiçilik sektorunda isə kartof (1,2%) meyvə (4,0%) və bostan məhsulları (2,0%) istehsalının hesabına əldə olunmuşdur.**

# QEYRİ NEFT-QAZ SƏNAYESİ



## Qeyri neft-qaz sənayesində əlavə dəyərin strukturu, mln. manat




- ✓ **2022-ci ilin yanvar-dekabr aylarında qeyri neft-qaz sənayesində artım (5,7%) daha çox qeyri-neft emal sənayesi (xüsusi çəkisi 71,5%) və elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı (xüsusi çəkisi 19,8%) hesabına olmuşdur.**
- ✓ **Qeyri neft-qaz emal sənayesində artım qida məhsullarının (7,7%), metallurgiya sənayesi (15,6%) və kimya məhsullarının (4,9%) və tikinti materiallarının (12,6%) istehsalında müşahidə olunan artım ilə izah olunur.**

# TİKİNTİ

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

**Qeyri neft-qaz sektoru üzrə əsas kapitala yönəldilmiş investisiyaların strukturu, %**




- ✓ **2022-ci ilin yanvar-dekabr aylarında qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcminin 13,6% artması tikinti sektorunda yaradılmış əlavə dəyərə müsbət təsir etmiş, nəticədə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 13,4% artaraq 6 471,6 milyon manat təşkil etmişdir.**

# TİCARƏT VƏ NƏQLİYYAT VASİTƏLƏRİNİN TƏMİRİ

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

## Ticarət və nəqliyyat vasitələrinin təmiri üzrə yaradılmış əlavə dəyər və artım tempinin dinamikası



# NƏQLİYYAT VƏ ANBAR TƏSƏRRÜFATI

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

## Yük daşınmasının nəqliyyat növləri üzrə strukturu, %




- ✓ **2022-ci ilin yanvar-dekabr ayları ərzində nəqliyyat və anbar təsərrüfatı sahəsində yaradılmış əlavə dəyər əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 23,2% artaraq 8041,9 milyon manata çatmışdır.**
- ✓ **Yük və sərnişin daşımaları 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə müvafiq olaraq 12,8% və 33,5% artmışdır.**

# TURİSTLƏRİN YERLƏŞDİRİLMƏSİ VƏ İCTİMAİ İAŞƏ

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

## Turistlərin yerləşdirilməsi və ictimai iaşə üzrə yaradılmış əlavə dəyər və artım tempinin dinamikası




- ✓ **2021-ci ildən başlayaraq pandemiya ilə əlaqədar tətbiq olunan məhdudiyyətlərin aradan qaldırılması cari ilin yanvar-dekabr ayları ərzində turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində yaradılmış əlavə dəyərə müsbət təsir etmiş, nəticədə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 58,2% artaraq 2115,2 milyon manat təşkil etmişdir.**
- ✓ **2022-ci ilin yanvar-sentyabr aylarında daxili turist səfərlərinin sayı əvvəlki ilə nisbətən 33,3% artaraq 13 767,6 minə çatmışdır .**

# İNFORMASİYA VƏ RABİTƏ

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

## İnformasiya və rabitə üzrə yaradılmış əlavə dəyər və artım tempinin dinamikası




- ✓ **Pandemiya dövründə informasiya və rabitə texnologiyalarından istifadəyə tələbin artması və müasir texnologiyalardan istifadənin genişləndirilməsi 2022-ci ilin yanvar-dekabr aylarında da bu sahədə artımın (14,8%) stabil qalmasını təmin etmişdir.**
- ✓ **Sektorda əldə edilmiş gəlirin 82,4 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.**

# DİGƏR SAHƏLƏR

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

## Digər xidmət sahələrində yaradılmış əlavə dəyərin artım tempinin dinamikası, %




- ✓ **2021-ci ildən başlayaraq pandemiya ilə əlaqədar tətbiq olunan məhdudiyyətlərin aradan qaldırılması 2022-ci ildə də maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, sosial təminat, təhsil, səhiyyə, sosial, istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət və digər xidmətlər sahələrində stabil artımı (4,1%) təmin etmişdir.**